*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 iyul 2018-ci il № 57 (2273) Qiymıəti 25 qəpik


# Xəzər sülh, dostluq dənizidir

## "Dəniz Kuboku-2018" müsabiqəsində iştirak edəcək gəmilər məşqlərə başlayıb



*Dövlətlərarası münasibətlər müxtəlif tədbirlərlə möhkəmlənir. Hər tədbirin mahiyyəti dünyəvilikdirsə, qarşılıqlı etimaddırsa, ikitərəfli, çoxtərəfli əməkdaşlıqdırsa, münasibətlər daha da möhkəmlənir. Bakıda keçirilən "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsi də bu qəbildəndir. Bu beynəlxalq müsabiqə ənənəvi keçirilir. Əvvəlki müsabiqələrdə əldə edilən təcrübələr "Dəniz Kuboku-2018"-in daha maraqlı keçəcəyinə zəmanət hesab edilə bilər.*

Aprelin 19-da Hərbi Dəniz Qüvvələrinin qərargahında "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində Azərbaycan ərazisi sularında təşkil olunacaq "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin planlaşdırılması üzrə işçi görüşü keçirilib. Təcrübə həmişə növbəti tədbirin daha uğurla keçirilməsində əhəmiyyətli olur. Bu görüş, təbii ki, müsabiqənin şəffaflığının, məzmunluğunun təmin olunmasına xidmət edir. Azərbaycan, Rusiya, Qazaxıstan və İran nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müsabiqənin növbəti dəfə ölkəmizdə təşkilinin əhəmiyyəti vurğulanıb. Bu və ya digər beynəlxalq tədbir iştirakçı dövlətlərin təşkilatçı dövlətin dövlətçiliyinə, tolerantlığına, onun təşkilatçılığına ehtiram deməkdir. Bu baxımdan "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin Bakıda keçirilməsi dövlətimizin çoxtərəfli əlaqələrinin gərəkliyini əhatələməklə onun siyasi maraqlarına da cavab verir. Siyasi maraq dövlətlərarası münasibətlərin genişləndirilməsi ilə müəyyənləşdirilir.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə hazırlıqla bağlı planlaşdırılan məsələlər, görüləcək işlər müzakirə edilib. Belə müzakirələr beynəlxalq müsabiqənin ruh yüksəkliyi ilə, ehtimal olunan anlaşılmazlıqlarla əlaqədar qabaqlayıcı tədbirlər görülməsilə bağlıdır və bu müzakirə "Dəniz Kuboku-2018"-in yüksək səviyyədə keçiriləcəyinə zəmanət kimi anlaşıla bilər. Nümayəndə heyətlərinin görüşündə yarışların keçirilməsi üçün hazırlanan infrastruktura baxış keçirilib. Bu, yarışların yüksək səviyyədə təşkil olunacağına və keçiriləcəyinə inamdır. İştirakçı dövlətlərin nümayəndə heyətləri əmin oldular ki, yarışlarda heç bir çətinlik olmayacaq, Azərbaycan dövləti bu yarışları da arzulanan səviyyədə təşkil edəcək.

**(Ardı 2-ci səhifədə)**

# Xəzər sülh, dostluq dənizidir

(Əvvəli 1-ci səhifədə)

Yarış müəyyən müddətdə rəqabət deməkdir və iştirakçıların nailiyyətlərini bu sahənin mütəxəssisləri dəyərləndirir. Mütəxəssislər yarışmalara hakimlik edirlər. Bu baxımdan "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsi hakimlərinin seminarı da gərəklidir. Şərtlərin əvvəlcədən xatırladılması yarışların yüksək səviyyədə təşkilini təmin edir. Tədbirdə bütün iştirakçı ölkələrin nümayəndələri iştirak etdilər. Müsabiqənin hakimləri normativ sənədlərin vəziyyətini, xüsusilə də mükafat və cərimə ballarının hesablanması prinsiplərini müzakirə edib, hakimlərin səlahiyyətləri və vəzifələri müəyyən olunub.




Yarış ərəfəsində məşqlərin səmərəsi danılmazdır. Bu yarışqabağı son məşq kimi anlaşılır. "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsində iştirak edəcək Azərbaycan, Rusiya, Qazaxıstan və İran hərbi gəmiləri Xəzər dənizindəki döyüş hazırlığı poliqonunda məşqlərə başlayıb. Yarışlarda dənizçilər "Artilleriya atəşlərinin yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə müsabiqənin müxtəlif mərhələlərində güclərini sınayacaq ən yaxşı heyətləri müəyyən edəcəkdir. Ümid edir və inanırıq ki, dənizçilərimiz bu il də qalib gələcəklər.

Hərbi Dəniz Qüvvələrinin qərargahında "Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin qaydaları, təhlükəsizlik və təşkilati məsələlərlə bağlı ilkin təlimat verilib və hakimlər komissiyasının iclası keçirilib. Tədbirdə təşkilati məsələlərlə bağlı tərəflərin təklifləri dinlənilib, hakimlər heyətinin tərkibi və müsabiqənin epizodlarının keçiriləcəyi yerlərə baxışların vaxtları dəqiqləşdirilib. Bunlar da beynəlxalq müsabiqənin yüksək səviyyədə təşkilini şərtləndirən amillərdəndir...

"Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsinin keçiriləcəyi müddətdə Xəzərin hərdən aşıb-daşan dalğaları sakitləşəcək, Azərbaycanımızın təşkil etdiyi bu beynəlxalq müsabiqənin gedişinə manеə olmayacaq; Xəzər Xəzəri sevənlərə könül xoşluğu verəcək...

"Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsi də tarixdir və bu tarixi dörd dövlətin dənizçiləri müştərək yaşayacaqlar. Həmin tarixdə bir ad da olacaq: Azərbaycan, Bakı, Xəzər. Bu üç sözün vəhdəti Azərbaycan dövlətçiliyinə sayğılarla anılacaq!...

"Dəniz Kuboku-2018" beynəlxalq müsabiqəsi ərəfəsində Xəzərin dalğaları sahilə sığal çəkməkdədi...

**"Azərbaycan Ordusu"**

## Müdafiə naziri Moskva şəhərinə gedib

*İyulun 27-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqunun dəvəti ilə Moskva şəhərinə gedib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov iyulun 28-də "Beynəlxalq ordu oyunları - 2018" yarışlarının rəsmi açılış mərasimində iştirak edəcək.

## Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

## “Tank biatlonu” və “Səhra mətbəxi”ndə iştirak edən heyətlər ilkin məşqlərini keçirib

*Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində "Ordu oyunları-2018" yarışlarında Azərbaycan hərbçiləri də iştirak edirlər. Bu yarışların mərhələlərindən biri də "Tank biatlonu" müsabiqəsidir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Ordu oyunları-2018"-in bu mərhələsində iştirak edən tank heyətləri və "Səhra mətbəxi"nə qatılan hərbi aşpazlarımız ilkin məşqlərdə iştirak ediblər.

Bu mərhələdə komandalar tankların texniki vəziyyətini yoxlayır, təhlükəsizlik texnikası üzrə məşğələlər aparır, yol və maneələrlə tanış olurlar.

Hər bir tank üçün normal döyüşdə tank-ştat silahlarının çatdırılması üzrə məşğələ aparmaq hüququ qazanacaq, silahları sınayacaqlar. Yeri gəlmişkən, üç mərhələdə keçiriləcək bu yarışda iştirakçı ölkələrin sayı 23-ə çatıb.

## “Azərbaycanın hava məkanının, dövlət və hərbi obyektlərinin tam təhlükəsizliyi təmin edilir”

*Son günlər Ermənistan mətbuatının təhlili göstərir ki, bu ölkənin hərbi-siyasi rəhbərliyinin və Dağlıq Qarabağdakı separatçı rejimin nümayəndələrinin bir-birindən sərsəm bəyanatlar səsləndirmələri onların ciddi narahatlıq keçirmələrinin, qorxu və təşviş içində olmalarının sübutudur.*

Bunu Azərbaycanın işğal olunmuş ərazilərindəki cinayətkar hərbi rejimin rəhbəri Levon Mnasakyanın "Lazım gələrsə, Mingəçevir SES-ə dərhal zərbə endiriləcəyi" barədə dedikləri ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

"Azərbaycan Ordusu cəbhə xəttində vəziyyətin istənilən inkişafına hazırdır. Ordumuzun sərəncamında olan və dağıdıcı qüvvəyə malik ən müasir silah sistemləri düşmənin bütün vacib hərbi obyektlərini və strateji kommunikasiya xətlərini qısa müddətdə məhv etməyə qadirdir. L.Mnakasyanın budəfəki absurd bəyanatına gəlincə isə, Azərbaycan hava hücumundan müdafiə və raket əleyhinə müdafiə sistemləri ölkənin bütün hava məkanının, o cümlədən xüsusi əhəmiyyətli dövlət və hərbi obyektlərinin tam təhlükəsizliyini təmin edir. Düşmən tərəf belə məsuliyyətsiz bəyanatlar səsləndirməzdən əvvəl düşünməlidir ki, Ermənistanın ərazisində elə obyektlər var ki, onlara zərbə endirəcəyimiz təqdirdə həmin ərazilərdə yüz illərlə yaşayış mövcud olmayacaq", - deyə Müdafiə Nazirliyinin cavabında xüsusi vurğulanıb.

Ön xətdən reportaj

# “Qalib əsgər olmaq istəyiylə xidmət edirik”

*Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elnur Xəlilov idarə etdiyi avtomobilin sürətini bir qədər də artırır. Bir-birinə oxşayan, qızılı rəngə çalan taxıl zəmilərini, ağacsız, yaşıllıqsız düzənlikləri, irili-xırdalı təpələri arxada qoyuruq. Ancaq bu eyniliklərin arasındakı fərqlilik - taxıl zəmilərinin həndəvərində ağır-ağır dövrə vuran leylək quşları gözümüzdən yayınmır. Sanki leyləklər uzaq səfərdə olarkən bu yerlərdə baş verən dəyişikliklərə diqqətlə nəzər salır. Adama elə gəlir ki, gözlərini məchul nöqtəyə zilləyib xəyala dalır. Ətrafa boylanır. Gecə-gündüz işğal altında olan torpaqlara, o torpaqlarda yiyəsiz qalan uçuq-sökük evlərə, bizləri o torpaqlara aparacaq yollara baxır. Yorulmadan qanad çalan leyləklər sanki Lələtəpədə, Bayraqtəpədə dalğalanan bayrağımızı alqışlayır. Elə bil onlar bu zəfəri qazanan Azərbaycan əsgərinin hünərini alqışlayır. Sanki Azərbaycan Ordusunun növbəti zəfərlərinin şahidi olmaq istəyir.*





Mayor Qalibiyyət Əliyev gözümüzü leyləklərdən ayırmadığımızı hiss edərək bildirir ki, Vətən və yurd sevgisi təkcə insanlara məxsus deyil, yaradılan bütün canlılarda da bu hiss vardır: "Azərbaycan hər birimizin Vətənidir. Bu gözəl yurdu bütün qəlbimizlə sevmək, varlığımızla ona bağlı olmaq hər birimizin vətəndaşlıq borcudur. “Vətən - onda yaşayan dəyərlərə görə müqəddəsdir. Hər bir Vətən övladı onun dəyərlərini tanımalı, qorumalı, öz varlığını ona bağlamalıdır. Azərbayan Ordusunda misal çəkiləsi belə oğullar çoxdu. Azərbaycan Ordusunu da qüdrətli edən bu amildir".

Səngərdəyik. Bizi qarşılayan manqa komandiri Mirdamət Miriyev düşmənlə təmas xəttində yerləşən müvafiq postda etibarlı müdafiə sisteminin qurulduğunu, xidmət üçün zəruri olan hər bir şəraitin olduğunu qeyd edir: "Ərazinin strateji əhəmiyyəti nəzərə alınaraq qurulan postda düşmənin istənilən təxribatının qarşısını almaq məqsədilə müxtəlif qurğular və maneələr yaradılıb. İstənilən səviyyədə rabitə əlaqəmiz, müasir döyüş texnikalarımız, artilleriya qurğularımız, müşahidə cihazlarımız var ki, bu da postda etibarlılığı təmin edir."

"Döyüşdə müasir texnika təminatı vacib olduğu qədər, şəxsi heyətin mənəvi-psixoloji durumu da mühüm əhəmiyyət kəsb edir", - deyə mayor Qalibiyyət Əliyev bildirir. - Bu səbəbdən də mükəmməl əsgər yetişdirmək əsas şərtlərdən biridir. Ona görə də istənilən zabit və ya gizir tabeliyində olan hər bir əsgərin mənəvi-psixoloji və ixtisas hazırlığına xüsusi önəm verir. Çətinlik çəkən əsgərlərə köməklik edir, onlara daha geniş biliklər və ən əsası Vətən sevgisi aşılayırlar. Artıq ön xətdə xidmət edən əsgərlər yiyələndikləri ixtisası mükəmməl bilməklə yanaşı, torpaqlarımızı işğaldan azad etmək istəyi ilə alışıb yanırlar.

"Vətən eşqi biz əsgərlərin damarlarında axan, qanında, canında dövr edən həyat qaynağıdır", - deyə Əbülfəz Təhməzov bildirir. - Vətəni yaşatmaq əsas amalımız və vicdanımızın səsidir. Nə qədər ki, Vətən var, deməli, biz də varıq. Ona görə də üzərimizə düşən vəzifəni dərindən anlayır və bunun öhdəsindən layiqincə gəlməyə çalışırıq.

Əslən Biləsuvar rayonundan olan əsgər Əbülhəsən Suvarov qeyd etdi ki, şəxsi heyətin vətənpərvərlik ruhu çox yüksəkdir. "Bu gün Azərbaycan əsgəri müharibənin başlanmasından qorxmur, əksinə, bunu səbirsizliklə gözləyir. Eyni zamanda, Azərbaycan əsgərində o inam da var ki, Ali Baş Komandanın rəhbərliyi ilə bütün döyüşlərdən qalib çıxacaq".

Əsgərlər Əsəd Hüseynov, Sərvan Məmmədov, Süleyman Hacıyev, Tofiq İdrisli və başqaları da bildirdilər ki, zaman yetişəndə Azərbaycan əsgəri Ali Baş Komandan əmr verərsə, torpaqları işğaldan azad etmək üçün qalibiyyət döyüşünə atılacaq, Azərbaycan əsgəri məğlub edəcəyi düşmənin bir daha torpaqlarımızı işğal etməsinə imkan verməyəcək. Əsgərlər qalib əsgər olmaq istəyiylə xidmət edirlər.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Əlahiddə Ümumqoşun Ordunun zabitləri zəngin tariximiz və mədəniyyətimizlə yaxından tanış olublar

*Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin zabitlərinin muzeylərə ekskursiyaları təşkil edilib.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, zabitlərimiz əvvəlcə Naxçıvan Dövlət Tarix Muzeyini ziyarət ediblər. Məlumat verilib ki, muzeydə Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 50 minə yaxın eksponat qorunub saxlanılır. Ekspozisiyalar, əsasən qədim, orta əsrlər, yeni və müasir dövrü əhatə edir. On şöbədən ibarət olan muzeydə müxtəlif əmək alətləri, Paleolit və Neolit dövrlərinə aid əşyalar, dən daşları, obsidiandan lövhələr, daş çəkiclər, sümük bizlər, Naxçıvan ərazisində aşkar olunan mis və gümüş pullar, orta əsrlərin məşhur memarlarından olmuş Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi möhtəşəm Mömünə Xatın, Yusif Küseyir oğlu türbələrinə və başqa memarlıq abidələrinə dair şəkilli materiallar, xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq nümunələri, xalq ustalarının əl işləri sərgilənir.

Zabitlər "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar. Mömünə xatın türbəsi ilə tanışlıq zamanı məlumat verilib ki, məqbərə tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Türbə yeraltı, yeni sərdabə və yerüstü hissələrdən ibarətdir.

Açıq səma altında nümayiş etdirilən, Naxçıvan Muxtar Respublikası ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi - daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr qonaqlarda böyük maraq oyadıb.

Xan sarayında olarkən zabitlərə bildirilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin zabitləri Xatirə Muzeyini, eləcə də muxtar respublikanın rayonlarında yerləşən tarix-diyarşünaslıq muzeylərini də ziyarət ediblər. Muzeylərdə zəngin tariximizi, mədəniyyətimizi özündə əks etdirən eksponatlar və görkəmli şəxsiyyətlərimiz haqqında ətraflı məlumat verilib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***27 iyul 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Nəmirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# Vətənin keşiyində dayanan oğullar

*Hərbin yolları nə qədər çətindirsə, bir o qədər də müqəddəs və şərəflidir. Bu müqəddəs və şərəfli yollarda addımlayan hər kəsin duyğularına, düşüncələrinə Vətən, torpaq sevgisi hakimdi, şübhəsiz. Səxavəti də hərbi peşəyə sövq edən elə bu Vətən, bu torpaq sevgisidi. İllərdir nankor qonşularımız Azərbaycan torpaqlarının 20 faizini işğal edib. Səxavəti də hərbə gətirən yollar illərdi düşmənin işğal altında saxladığı torpaqlarımızdan keçib. 25 ildən artıqdır ki, həmvətənlilərimiz ata-baba yurdundan ayrı düşüb. Təmas xəttində yaşayan sakinlərimizin sakit, dinc həyatı pozulub.*



Bu gün Səxavət Azərbaycan Ordusu sıralarında şərəflə xidmət edən zabitlərdən biridir. O, üç ildir ki, xidmət etdiyi hərbi hissədə nümunəvi zabit kimi komandir heyətinin hörmətini qazanıb.

Leytenant Səxavət Əmirəliyev Xaçmaz rayonunda anadan olub. Orta məktəbi əla qiymətlərlə başa vurduqdan sonra Gəncə Dövlət Universitetinin pedaqoji fakültəsinə daxil olub. O, universiteti bitirdikdən sonra qarşısına məqsəd qoyur ki, hər zaman marağında və həvəsində olduğu hərbi peşəni seçsin. Gənc zabit hərbi xidmətə çağırıldığı günü həyatının ən yaddaqalan günü kimi xatırlayır. Nəhayət, 2015-ci ildə "N" hərbi hissəsində zabit kimi xidmətə başlayır. Xidmətə başladığı ilk gündən hərbi verdişlərə dərindən yiyələnən gənc zabit S.Əmirəliyev verilən tapşırıqları vaxtında və məsuliyyətlə yerinə yetirir. O, hazırda bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edir.

Zabit şəxsi heyətin mənəvi-psixoloji hazırlığında ictimai-siyasi dərslərin əsas yer aldığını dedi: "Xalqımızın qəhrəmanlıq nümunələri və uzun illər yadelli işğalçılara qarşı apardığı müharibələr haqqında biliklər şəxsi heyətə aşılanır. Azərbaycanın qəhrəmanlıq tarixi, sərkərdəlik tarixi, dövlətçilik tarixi onlara öyrədilir. Azərbaycan Ordusunun banisi ulu öndər Heydər Əliyev irsi şəxsi heyətə geniş məzmunda çatdırılır. Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu dövlətimizin tarixini bilməli, hər an Vətənimizi qorumağa, onun müdafiəsində ayıq-sayıq dayanmağa hazır olmalıdır. Şəxsi heyətə Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanlar haqqında məlumat verilir."

2016-cı ilin aprelin əvvəllərində ordumuzun əks-həmlə əməliyyatında iştirak etdiyini deyən leytenant S.Əmirəliyev bu gün həmin günlərdə əsgər və zabitlərimizin döyüş meydanında göstərdiyi qəhrəmanlıqları qürurla xatırladığını dedi: "Aprel döyüşləri ordumuzun gücünü düşmənə göstərdi. Düşmən ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının və döyüş hazırlığının yüksək səviyyədə olduğunu gördü. Döyüş gedən istiqamətlərdə erməni işğalçıları silahlarını, xidməti yerlərini atıb qaçırdılar. Biz düşmənin zəifliyini, gücsüzlüyünü belə gördük. Aprel döyüşlərində şəhid olan əsgər və zabitlərimizin qisası heç zaman yerdə qalmayacaq. Tezliklə, düşmən tapdağı altında olan torpaqlarımızı qüdrətli ordumuzun, Ali Baş Komandanımızın rəhbərliyi altında azad edəcəyik. Qaçqın və köçkünlərimiz öz el-obasına, yurd yerlərinə dönəcəklər. Üçrəngli bayrağımız Şuşada, Qarabağda... dalğalanacaq".

Leytenant Səxavət Əmirəliyevin sözləri məni çox qürurlandırdı. Fəxr edirəm ki, Vətənimizin, torpağımızın müdafiəsində Səxavət kimi oğullar şərəflə xidmət edir.

**Kursant**
**Əli ABIYEV**



# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 25-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində keçirilmiş monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Saymon Tiller aparıblar.

*Nümunəvi xidmət*

# "Mən də qəhrəman olacam"

Həyat yolunu mənalı və məqsədli şəkildə quran, daim öz üzərində çalışan insanlardan biri də həyatını Vətəninə xidmətə həsr edən, öz bacarığı, qabiliyyəti və əməyi ilə ucalan baş gizir Əhməd Əhmədov 1980-ci ilin isti yay günlərindən birində Lənkəranda dəmirçi ailəsində dünyaya göz açıb. Böyüyüb boya-başa çatdığı Girdəni kəndində Əhmədin atası Mirqasım kişi zəhmətsevərliyi ilə hamının hörmətini qazanıb.

Əhməd böyüyür, ata sənətindən hali olur. Öz işinə bağlı olan Mirqasım kişi dəmir döyməyi, forma verməyi və sahibi olduğun peşəyə bağlılığı oğluna aşılayır.

Təhsil aldığı məktəb 1994-cü ildə Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olan Məhəmməd Bağırovun adını daşıyırdı. Zaman ötdükcə təhsilində uğurlar qazanan məktəbli Əhməd əmisi Akirin də təsiri ilə hərbçi olmaq istəyir. Yuxarı siniflərə çatanda Əhmədin daha bir qabiliyyəti üzə çıxır - taxtanı yonaraq gözəl fiqurlar hazırlayır, dəmiri döyərək istədiyi formaya salır.

Əhməd ixtisas seçimində tərəddüd edir. Kimi ona dəmirçi, kimi incəsənət adamı, kimi də hərbçi olmağı məsləhət görür. 1998-ci ildə orta məktəbi bitirəndə müddətli həqiqi hərbi xidmətə yollanır. Düşmənlə üzbəüz mövqedə yerləşən hərbi hissələrdən birində Vətən borcunu yerinə yetirməyə başlayır. Əhməd nizam-intizamı ilə fərqlənir. Xidmətini düzgün qurmağı, Vətənə necə layiqincə xidmət etməyi bölük komandirindən - hazırda polkovnik olan Polad Həşimovdan öyrənir. Təcrübəli və vətənpərvər zabit bütün əsgərləri kimi, Əhmədə də hərb elminin sirlərini öyrədir. Əhməd komandirinin əmr və tapşırıqlarını vaxtında icra edir. Pulemyot manqa komandiri vəzifəsinə təyin olunur. Təyinatının ilk günlərində kiçik komandir birləşmə üzrə keçirilən pulemyotçular yarışına göndərilir. Yarışda avtomatik və tək-tək atışda bütün iştirakçıları qabaqlayan Əhməd birinci yerə layiq görülür.

Xidmət müddətini uğurla başa vuran manqa komandiri fəxri fərmanları və ürəkaçan xidməti xasiyyətnaməsi ilə doğma Girdəni kəndinə qayıdır. Yenə ixtisas seçimi, tutmalı olduğu həyat yolu aktual məsələyə çevrilir. Mirqasım kişi dəmirçi olmasını, ata sənətini davam etdirməsini, Cəmilə ana isə gözünün ağı-qarası Əhmədinin daha asan işlə məşğul olması üçün təhsil almasını istəyir. Lakin ən düzgün və şərəfli yolu hərbçi əmisi Akir kişi göstərir. "Əhməd, nə qədər ki, Azərbaycan var, nə qədər ki, torpaqlarımız işğaldadır, biz Vətənə xidmət etməliyik. Sən hərbçi olsan, heç vaxt peşman olmayacaqsan". Əmisinin sözlərindən sonra komandiri Polad Həşimovun dediyi "Vətənin bizlərə - sağlam, iradəli və bacarıqlı döyüşçülərə ehtiyacı var. Qarabağı azad etməli, üçrəngli bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə... dalğalandırmalıyıq" sözlər Əhmədin fikrini qətiləşdirir. O, şərəfli həyat yolunu ömür yoluna çıraq edir. 2002-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində motoatıcı ixtisası üzrə gizir hazırlığı kursuna daxil olur. O, hərbi xidmətdə öyrəndiklərini təkmilləşdirir. Təlimlər zamanı keçdiyi döyüş və fiziki hazırlıq dərslərinə, təlim atış çalışmalarına həvəslə diqqət yetirir və təcrübəli zabitlərin hərbi biliklərini mənimsəyir. Kursu başa vurduqdan sonra "N" hərbi hissəsində xidməti vəzifəsinə başlayır.



Əhmədlə tanışlığımız da xidmət başında olub. Baş gizir rütbəsi ilə təmir taqımının komandiri vəzifəsindədir. Uzun illər, çətin və şərəfli keçən xidmət yolu əl qabiliyyətini, atasının öyrətdiyi dəmirçilik sənətini ondan ala bilməyib. Gördüyü işlər və bacarığı yuxarı komandanlığın da diqqətindən yayınmayıb və bu vəzifəyə təyin olunub. Komandiri olduğu taqım döyüş və sülh zamanı təyinatına uyğun olaraq sıradan çıxmış texnikanı qısa müddətdə bərpa edir, bərpası mümkün olmayan texnikanın təxliyəsini həyata keçirir.

Əhmədlə söhbətimizdə daim mütaliə etdiyini öyrənirik.

"Atam dəmirçi, anam təhsilli, əmimsə hərbçi olmağımı istəyirdi. Düzdür, qərarımı verdikdə hər birinin inanılmaz dəstəyini gördüm. Mən şərəfli yol seçdim. Vətənimə xidmət edən hərbçiyəm, ata sənətinin davam etdirən dəmirçiyəm, anamın istədiyi kimi savadlıyam. Düşünürəm ki, Vətənimə də, ailəmə də xeyirli övladam. Bu həyatda mənə daim dəstək olan ailəmə, xidmətimi daim qiymətləndirən Milli Qəhrəmanımız general-leytenant Rövşən Əkbərova dərin minnətdarlığımı bildirirəm".

Vətənpərvərliyi, bacarığı, gördüyü işləri ilə hamı tərəfindən sevilən Əhmədi yuxarı komandanlıq daim mükafatlandırır.

"Xidmətimi nöqsansız qurmağa çalışmışam. Bacardığımı da düşünürəm. Çünki bütün komandirlərim tərəfindən hər zaman mükafatlara, fəxri fərmanlara layiq görülmüşəm. Bunlar arasında mənim üçün əvəzedilməzi isə Milli Qəhrəman general-leytenant Rövşən Əkbərovun Azərbaycan Ordusunun 100 illiyi münasibəti ilə üzərində adının həkk olunduğu saat hədiyyə etməsi oldu. Bu saata ömrümün sonuna qədər baxaraq xidmət illərimi xatırlayacam", - deyə Əhməd bildirdi.

Həmsöhbətimizin gözəl əl qabiliyyəti olduğunu bildiyimiz üçün kiçik emalatxanasına da baş çəkdik. Taxtadan yonulmuş müxtəlif fiqurlar, tariximizi əks etdirən atributlar, hazırladığı qılınc və qın valeh edəcək dərəcədə gözəldir. Emalatxananın ən hündür yerində Milli Qəhrəman medalını əks etdirən şəkil olduğunu görürəm. Fotoya diqqətlə baxdığımı görən Əhməd deyir: "Qəhrəman olmaq hər bir azərbaycanlının arzusudur. Lakin qəhrəman kimi ölmək hər kəsə qismət olmur. Mən tezliklə Ali Baş Komandanımız İlham Əliyevin sərkərdəliyi ilə Qarabağımızın azad edilməsinin arzusundayam. Qəhrəman kimi döyüşüb, qəhrəman olmaq istəyirəm".

Emalatxanada gördüyüm və diqqətimi çəkən balaca yaş kötük barəsində soruşuram.

"Yaş kötüyə önəmli tarixlər həkk olunur. Mən də Qarabağın işğaldan azad olunma tarixini və ehtiyata buraxılma əmrimi bu kötüyə həkk edəcəm", - baş gizir Əhməd Əhmədov dedi.

Vətənpərvər, xalqına, millətinə bağlı insanlarla, bacarıqlı hərbçilərlə qürurlanırsan. Torpaqlarımız işğaldan azad olacaq. Əhməd kimi ömür payını ləyaqətlə, vicdanla, kişi kimi yaşayanlar həmişə ehtiramla anılacaq...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

Düşüncələr

# Vətən mənəm, Vətən sənsən, Vətən bizik



*1994-cü ilin yanvarı. Horadiz əməliyyatı. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin uğurlu Horadiz əməliyyatı nəticəsində Horadiz qəsəbəsi, Füzuli rayonunun 20 kəndi ilə birlikdə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ermənilərdən azad edildi. İşğalda olduğu müddətdə kənd tanınmaz hala salınmış, yaşayış evləri talan edilmiş, dağıdılmışdı. Ətraf yüksəkliklərdə düşmən qüvvələrinin mövqe tutması, Cocuq Mərcanlının ərazisini faktiki olaraq təhlükə altında saxlayırdı.*

2016-cı ilin aprelində Azərbaycan Ordusunun əks-həmləsi ilə Lələtəpə yüksəkliyi azad edildi. Düşmən qüvvələrinin Cocuq Mərcanlı kəndinə, ərazidə yerləşən mövqelərimizə yaratdığı təhlükə aradan qaldırıldı. Bu gün işğaldan azad edilmiş yüksəkliklərdən düşmənin mövqeləri tam nəzarət altındadır. Təxribat imkanları vaxtında aşkarlanaraq zərərsizləşdirilir.

Ordumuzun aprel zəfəri Böyük Qayıdışın başlanğıcı oldu. Cocuq Mərcanlının təhlükəsizliyi təmin olunduqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev kənd sakinlərini sevindirən daha bir qərar qəbul etdi. İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında 24 yanvar 2017-ci il tarixli Sərəncam imzaladı. Sərəncam təkcə bu kəndə və cəbrayıllılara deyil, bütün Azərbaycan xalqına könül xoşluğu yaşatdı. İnsanların öz doğma yurdlarına qayıdıb əmin-amanlıq şəraitində yaşamalarına imkan yaratdı.

...Cocuq Mərcanlıya gedirəm. İzaholunmaz hisslərlə çıxmışam yola. Həyəcanlıyam. Həsrətində olduğum bir məkana can atıram. Uğrunda canlar verilib, qanlar tökülən torpaq... Ruhumun səcdəyə getdiyi, hər qarışı candan əziz Cocuq Mərcanlı...

Yolboyu yaşıl zəmilər, tarlalarda işləyən insanlar, aparılan abadlıq işləri bir zabit olaraq qəlbimi qürurla doldurur. Bunlar ordumuza inamın təzahürüdür.

23 ildir Cocuq Mərcanlıda düşmənlə üz-üzə, onun gözünə dik baxaraq öz ev-eşiyində yaşamağı hər şeydən uca tutan 8 nəfərdən ibarət Həziyevlər ailəsini xatırlayıram. Cocuq Mərcanlı işğal olunanda doğma kəndlərini tərk etməyə məcbur olan Həziyevlər ailəsi dədə-baba yurdları azad edilən kimi geri qayıtdı. Ailənin başçısı Oqtay Həziyev dedi ki, kəndimiz işğaldan azad olunandan ordumuza güvənərək burada yaşayırıq. İlk vaxtlar çətinliklərimiz çox olub. Lakin heç vaxt kənddən çıxmaq barədə düşünməmişik. Çünki doğma torpağımızdayıq.

Vətən - varlığımız, fəxrimiz, qürurumuzdu... Vətən təkcə torpaq, ocaq, yurd deyil. Vətən üçün yaşayırsansa, Vətəninsən; Vətən mənəm, Vətən sənsən, Vətən bizik. Vətənin dünəninə, bu gününə, sabahına hamımız cavabdehik.

Vətənpərvərlərdi, Vətənini, yurdunu sevənlərdi, dövlət atributlarına hörmətlə yanaşanlardı, onu qoruyanlardı, hər vaxt üçrəngli bayrağını uca tutanlardı Vətən.

Lələtəpə... Əzəmətlə dalğalanan üçrəngli bayrağım... Milli qürurumuzun Günəşə - işığa, azad və əngin səmaya can atan ruhmisal simvolu. Ruhumun, qəlbimin, vücudumun keçirdiyi sevinci pıçıldadım Lələtəpədə qürurla dalğalanan üçrəngli bayrağımıza. Həqiqi sevgi pıçıltıdır, haray deyil. Əsl sevgi əməldir, söz deyil... Qüdrətli ordumuzun, igid, qorxubilməz əzgərlərimizin sevgisinin möhürüdü Lələtəpə.

Lələtəpə fatehlərinin şərəfinə ucaldılan abidə... Qara mərmərdən gülümsünən neçə-neçə nurlu, aydın sima. Çiçəkləyən gül kollarının ətri. Ölümsüzlüyə qovuşan igid hərbçilərimizin müqəddəs ruhu qarşısında baş əyərək, kövrəkliyə qarışıq qürur duyuram.

Yol kənarındakı plakat. "Cocuq Mərcanlıdan - Şuşaya"... Hiss etdiklərimi sözlə ifadə etmək üçün kəlmələr yetməz.

Cocuq Mərcanlıda 24 illik fasilədən sonra həyat əvvəlki tək öz axarındadı. 24 illik yurd həsrətindən sonra Cocuq Mərcanlı sakinləri doğma el-obalarına qayıdıblar. Bu məkana düşmən daha nüfuz edə bilməz. Çünki onları bu kəndə qaytaran güclü və qüdrətli Azərbaycan dövlətidirsə, təhlükəsizliyinin təminatçısı qüdrətli Azərbaycan Ordusudur.

Şuşa məscidinin bənzəri olan məscidin qarşısındayam. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Bu məscid Azərbaycanın öz dəyərlərinə sadiqliyini dünyaya bəyan edir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası o deməkdir ki, gün gələcək, müqəddəs Şuşamız işğaldan azad olunacaq, illərin sınağından çıxan həmin tarixi məscid də bərpa ediləcək.

Azan səsi... Xəyalım məni illər öncəsinə aparır. Anam namaz qılır. "Allahım, xalqımın başının üstündən qara buludları uzaqlaşdır. Millətimə Qələbə sevinci yaşat. Övladlarımız aydın səma altında böyüsünlər. Doğma torpaqlarımızda azan səsini eşitməyi, namaz qılmağı nəsib et". Televiziyada Cocuq Mərcanlıda aparılan abadlıq işlərini əks etdirən verilişdən sonra axıtdığı sevinc göz yaşlarını xatırlayıram. İnsanlar məscidə namaza tələsirlər...

Buradan o yana üfüq xəttinə kimi uzanıb gedən doğma torpaqları öpüb qoxlamaq keçir könlümdən. İşğal altındakı digər torpaqlarımız da Cocuq Mərcanlı kimi öz sakinlərinin həsrətindədir. Həsrətin sonuna az qalıb. Çox az....

Ruhum sərhədləri çoxdan arxada qoyub...

Vətən mənəm, Vətən sənsən, Vətən bizik. Vətənə Vətən daşı olmağımızla...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Əsgərlərin fiziki hazırlığı yüksəkdir

*"N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlığı həmişə diqqət mərkəzində saxlanılır. Bu hazırlıq sistemli şəkildə həyata keçirilir. Fiziki hazırlıq səhər idmanı ilə başlayır və müxtəlif vaxtlarda, müxtəlif yarışmalarla tamamlanır. Döyüş hazırlığına fiziki hazırlığın göstərdiyi təsir böyükdür. "N" hərbi hissəsində günün nizam qaydalarına əsasən əsgərlər müxtəlif fiziki təmrinlər yerinə yetirirlər.*





Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vurğun Rüstəmov söhbətimizdə dedi: "İdman tədbirləri günün nizam qaydalarının ayrılmaz və mühüm tərkib hissəsidir. Əsgərlərin döyüş hazırlığının yüksəldilməsində fiziki hazırlığın mühüm rolu var. Bu rol ondan ibarətdir ki, idman, fiziki hazırlıq hər bir hərbçinin döyüş əzmini yüksəldir. Necə deyərlər: sağlam bədəndə sağlam ruh olur. Şəxsi heyətin döyüş hazırlığının fiziki hazırlıqla pararel aparılması əsas şərtdir.

Hərbi hissədə vaxtaşırı idman yarışları keçirilir ki, bu da fiziki hazırlığın yüksəldilməsi üçündür. Hər bir əsgərin müəyyənləşmiş normativləri yerinə yetirməsində bu hazırlığın əhəmiyyəti böyükdür. İdmanın bu və ya digər növüylə məşğul olan əsgərlər hərbi hissəni müxtəlif yarışlarda uğurla təmsil edirlər. Bunun nəticəsidir ki, əsgərlərin döyüş hazırlığı yüksək səviyyədədir. Onlar Ali Baş Komandanın döyüş əmrinə hazırdırlar. Hər biri torpaqlarımızın işğaldan azad edilməsini hərbi xidmət amalı bilir."

Bu barədə əsgər Ataxəlil Xəlilov bildirərək qeyd etdi ki, hərbi xidmətə gəlməmişdən əvvəl idmanla məşğul olmurdum. "Lakin əsgərliyə gəldikdən sonra anladım ki, fiziki hazırlıq həyatda çox lazım olur. Ona görə sərbəst vaxtım olanda idmanla məşğul oluram. İlk vaxtlar əsgər yoldaşlarım mənə bu işdə yardımçı olurdular. Komandirlərimiz bizim idmanla müntəzəm məşğul olmağımıza şərait yaradırlar. İndi bütün normativləri yerinə yetirirəm".

Hiss olunur ki, əsgərlər fiziki cəhətdən hazırlıqlıdırlar. Ardıcıl olaraq müxtəlif alətlərdə məşq edirlər. Çoxu daha hazırlıqlı görünür. Onlar digərlərinə çalışmaların düzgün yerinə yetirilmə qaydalarını göstərir, onlara kömək edirlər.

Əsgər Zöhrab Əliyev bildirdi ki, hər birimiz Vətəni sevirik, Ali Baş Komandanın əmriylə torpaqlarımızı işğaldan azad etməyə hazırıq. "Güclü ordumuz var. Ordumuzun 100 illiyinə həsr olunmuş parad təsdiqlədi ki, həqiqətən, Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Hərbi xidmətdə döyüş hazırlığı və hərbi biliklərlə yanaşı, möhkəm sağlamlığa malik olmağa, fiziki hazırlığa üstünlük veririk".

2016-cı ilin aprel döyüşləri də təsdiqlədi ki, Azərbaycan əsgəri yüksək döyüş hazırlığına malikdir. Bu həm də onların fiziki hazırlığıyla bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Müdafiə Nazirliyi rəhbərliyinin tələb və göstərişlərini böyük məsuliyyətlə yerinə yetirən əsgərlərimizin mənəvi-psixoloji hazırlığı da yüksəkdir, döyüş hazırlığı da, fiziki hazırlığı da.

**Kursant**
**İbrahim MƏMMƏDBƏYOV**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**

**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**

**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

### *Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri*

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir. Hazırda Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir dövrdə Azərbaycan Ordusunun hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətlərini aparır və torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli və eyni zamanda çox çətin bir vəzifəni yerinə yetirirlər. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir. Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, Müdafiə nazirinin əmrləri, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### *Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi*

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları: "Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Əsgərlərdə öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri hərbi qulluqçulara döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda kömək edir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### *Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir*

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmənin kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur; gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, hərbi andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

Ordu və cəmiyyət

# "Yazıçı əbədiyyətdə xalqın vəkilidir"

*Rubrikamızın qonağı xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin katibi, hüquq elmləri doktoru, şöhrət ordenli Çingiz Abdullayevdir.*



**- Çingiz müəllim ordu-cəmiyyət əlaqələrinə hansı şərhi verərdi?**

- XIV əsrdə ingilislərdə belə bir deyim məşhur idi: "Əgər sən istəmirsən ordunu maliyyələşdirəsən, onda qonşu orduya pul verib saxlayacaqsan". Təbii ki, cəmiyyətdə ən böyük hörmət, ən böyük dəstək öz orduna olmalıdır və ən böyük vəsait öz orduna ayrılmalıdır. Ona görə də güclü ordun varsa, sərhədlərini güclü müdafiə edə biləcəksən. Həkim, müəllim, mühəndis hörmətli peşədir. Lakin dövlətimizi müdafiə edən, xalqımızı, torpaqlarımızı qoruyan ordudur, onun şəxsi heyətidir, hərbçilərimizdir. Cəmiyyətimizdə də ən böyük hörmət o insanlaradır ki, gecə-gündüz xalqımızın, Vətənimizin, torpaqlarımızın, keşiyindədirlər.

**- Yaradıcılıqda, ədəbiyyatda ordu mövzusu tarixin bütün dönəmlərində aktual olub. Dünya şöhrətli bir yazıçı olaraq bu barədə fikrinizi bilmək oxucularımıza maraqlıdır.**

- Bəli, ədəbiyyat tarixən orduyla bağlı olub. Çünki müharibələrdə, döyüşlərdə qəhrəmanlar doğulur. Onları tərənnüm etmək, gələcək nəsillərə tanıtmaq lazımdır. Bu səbəbdən də orduyla ədəbiyyat qoşa addımlayır. Qədim yunan ədəbiyyatında Homer Troyadan yazanda döyüş, qəhrəmanlıq səhnələrini əsərinin süjet xətti kimi verirdi. Azərbaycan şifahi xalq ədəbiyyatında nə qədər qəhrəmanlıq dastanlarımız var. Böyük Vətən müharibəsi illərində xalq şairi Səməd Vurğun "Müsəlləh əsgərəm mən də bu gündən" deyib səngərlərdə, döyüş meydanlarında yazdığı yeni şeirləriylə əsgərləri faşizm üzərində qələbəyə ruhlandırırdı. Digər şair və yazıçılarımız da ön cəbhələrdə döyüşən əsgərlərimizin qəhrəmanlığını qələmə alırdı.

Qarabağ döyüşlərində şəhid olan neçə jurnalistimiz, şairimiz, yazıçımız var. Onlar qəhrəmanlıq göstəriblər, qələmlərini süngüyə çevirib Azərbaycanın müstəqilliyi, torpaqlarımızın azadlığı uğrunda canlarından keçiblər. 11 nəfər şair, yazıçı övladı ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhid olub. Xalq şairi Xəlil Rzanın oğlu Təbriz Qarabağ müharibəsi başladığı ilk gündən könüllü olaraq cəbhəyə gedib, döyüşlərdə hünər göstərib. Xalam oğlu Nuru da Şuşanın müdafiəsi uğrunda gedən döyüşlərdə həlak olub. Şair, yazıçı həmişə ədəbiyyatı ilə, yaradıcılığı ilə ordusunun yanındadır. Bunu biz hər zaman belə görmüşük.

Azərbaycan Yazıçılar Birliyində vətənpərvərlik bölməsi var. Orada təmsil olunan şair və yazıçılar, yaradıcı insanlar cəbhə bölgələrinə gedir, hərbçilərimizlə görüşür, onlara kitablarını bağışlayırlar. Mən özüm də dəfələrlə cəbhə xəttində, ordu hissələrində əsgər və zabitlərimizlə görüşlər keçirmişəm. Bunu biz etməliyik. Bu bizim vətəndaşlıq borcumuzdur. Hərbi hissələrdə, Daxili Qoşunlarda, Dövlət Sərhəd Xidmətində və Hərbi Dəniz Qüvvələrində şəxsi heyətlə maraqlı görüşlərimiz olur. Biz həmişə ordumuzun yanındayıq. Bu görüşlər tez-tez olmalıdır. Hərbçilərimiz səngərdən, odun-alovun içindən yazan, qəhrəmanlığı tərənnüm edən yazıçısını və şairini lap tez-tez görməlidir, onunla tez-tez təmasda olmalıdır. Qarabağ müharibəsi mövzusu bitməməlidir. Düzdür, bu mövzuda çoxlu sayda əsərlər yazılıb, indi də yazılır, mən deyərdim ki, daha çox yazılmalıdır. Nə vaxtacan torpaqlarımız düşmən işğalı altındadır, o vaxtacan Qarabağ müharibəsi davam edəcək. Biz vətənpərvərlik təbliğatını daha da genişləndirməliyik, övladlarımızı, gənclərimizi vətənpərvərlik ruhunda böyütməliyik. Bu ədəbiyyatın birinci məqsədidir.

**- 2016-cı ilin oktyabrında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun xalq şair və yazıçıları, tanınmış elm xadimləri, ədəbiyyat nümayəndələri ilə görüşü keçirildi. Görüş barədə təəssüratlarınız.**

- Bu görüşün əhəmiyyəti barədə çox danışmaq olar. Qısaca deyim ki, çox maraqlı və tarixi bir görüş idi. Nazirlə keçirilən qəbulda ordumuzun aprel döyüşlərindəki uğurlu qələbələrindən, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin orduya göstərdiyi yüksək diqqət və qayğısından geniş söhbətlər apardıq. Bu görüşdə, həmçinin ordu şair, yazıçı əlaqələri və ordu ziyalı əlaqələri barədə də ətraflı bəhs olundu. Mən özüm də ehtiyatda olan zabitəm və hərbçilərə böyük hörmətim var. Biz ordumuzla fəxr edirik, qürur duyuruq.

**- Ötən əsrin 90-cı illərindəki ordumuzla bugünkü ordumuzun fərqini necə qiymətləndirirsiniz?**

- 1991-ci ildə müstəqilliyini yenicə bərpa edən Azərbaycanda ordu quruculuğu ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Onun ikinci dəfə hakimiyyətə qayıdışı ilə ordu pərakəndə, dağınıq ordudan nizami və dünyanın ən müasir ordusuna çevrildi. Bu bir tarixi həqiqətdir. Diqqət edin, yadınızdadırsa, ölkəyə rəhbər gəldiyi ilk günlərdə Ümummilli Liderimiz cəbhə xəttində yerləşən hərbi hissələrə gedirdi, döyüşən əsgər və zabitlərlə görüşürdü, onların qayğıları ilə maraqlanırdı. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirir və ölkənin ordu quruculuğunu prioritet məsələ hesab edir, daim diqqətində saxlayır. Bu gün dövlətimizin orduya ayırdığı vəsait Ermənistanın büdcəsindən qat-qat çoxdur. Azərbaycanın müdafiə qüdrəti gündən-günə daha da möhkəmlənir. Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusudur. Bu gün ordumuz dünyanın 50 ordusu sırasında yer alıb. Ordumuz dünyanın ən müasir silah və texnikası ilə təchiz olunur. Ölkəmizin müdafiə sənayesi müasir silah və texnikanın istehsalında önəmli yer tutur, bir çox dövlətlərin təşkil etdiyi sərgilərdə iştirak edir. Ordumuzun 100-cü ildönümü ilə bağlı keçirilən möhtəşəm parad bütün dediklərimizi sübuta yetirir. Azərbaycan Ordusunun silahlanmasına daxil olan ən müasir texnikalar, təyyarələr, gəmilər paradda nümayiş olundu.

**- Ordumuzun aprel qələbəsi və bu qələbənin cəmiyyətə təsiri haqqında nə deyə bilərsiniz?**

- Aprel döyüşlərindən danışarkən onu xüsusi qeyd etmək istəyirəm ki, gənclərimizdə olan ruh yüksəkliyi, qəhrəmanlıq, qorxmazlıq, döyüş əzmi, düşmənə nifrət, hər kəsin orduya bağlanması məni çox qürurlandırırdı. Gənclərimiz orduya səfərbər olunması üçün lazımi yerlərə müraciətlər edirdilər. Hər an Ali Baş Komandanın əmrini gözləyirdilər. "Neftçi" futbol klubunun iki nəfər üzvü döyüşə getməyə hazır idi.

**- Ordu tariximizə də diqqətinizi çəkmək istərdim.**

- Azərbaycanlılar orduda xidmət etməsələr də, amma görün, çar imperiyasında, Cümhuriyyət tarixində, ondan sonrakı dönəmlərdə necə bizim tanınmış sərkərdələrimiz, qəhrəmanlarımız olub. Tam artilleriya generalları Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Hüseyn xan Naxçıvanski, Həzi Aslanov, Ziya Bünyadov, Mehdi Hüseynzadə, Əhmədiyə Cəbrayılov və başqaları dünya müharibələri tarixində xalqımızın qəhrəmanlıq salnaməsini yaradıblar. Qəhrəman xalqımız Heydər Əliyev kimi sərkərdə generalını yetişdirib. Onların hər birinin ömrü şanlı hərb tariximizin qızıl səhifələridir. Bu gün Azərbaycanımızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən Qarabağ döyüşlərində xalqımızın cəsur övladları ata-babalarımızın o qəhrəmanlıq ənənələrini davam etdirir.

**- Çingiz müəllim, yaradıcılıq planlarınızda yenə də Qarabağ mövzusu varmı?**

- Bu mövzu yaradıcılığımın daimi mövzusudur. Həmişə məni narahat edir. Xalqımızın qan yaddaşına yazılan faciədə, həm də şahidi olduğumuz Xocalı soyqırımında şəhidlik zirvəsinə ucalan dörd qəhrəmanımız var. Onlar haqqında sənədli əsər yazmağı düşünürəm. Qarabağ mövzusundan çox yazmışam. İstəyirəm ki, bu dəfə sənədli bir bədii əsər olsun. Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzində vaxtilə Xocalı sakini olmuş bir xanım çalışır. O, 11 yaşında olarkən Xocalı müsibətlərini, Xocalı dəhşətlərini öz gözləri ilə gördüyünü deyir. Anasının ermənilər tərəfindən vəhşicəsinə güllələndiyini, atasının da pusquda duran erməni cəlladları tərəfindən ağaca bağlanaraq yandırıldığını danışdıqca insanı dəhşət bürüyür. Göz yaşlarını saxlaya bilmirsən. Özü də bütün bu dəhşətlər o zaman kiçik yaşlarında olan bacı və qardaşlarının gözü önündə baş vermişdi. Qarabağda dinc insanların başına gətirilən belə hadisələri sənədli əsərə çevirmək lazımdır. "Əclafların qanunu" romanım sırf Qarabağla bağlıdır. 1990-cı ildə 20 Yanvar faciəsindən sonra İbrahim Şükürovla birlikdə üç günə "Qara Yanvar" kitabını rus dilində hazırladıq və Moskvaya göndərdik. O zaman həmin kitabı bütün SSRİ deputatlarına paylamışdılar. Bu gün Heydər Əliyev Fondu Qarabağ həqiqətləri ilə bağlı kitabları xarici dillərə çevirərək dünyaya yayır. Görün, Xocalı soyqırımı ABŞ-ın neçə ştatında tanınıb. Qəzet, jurnal, radio, televiziya ən böyük təbliğat vasitəsi olduğu kimi, kitab da bunların sırasında ən böyük təbliğat vasitəsidir. Kitabda nəyisə yazırsansa o qalacaq. Ona görə kitab ən gözəl təbliğat vasitəsidir. Mən həmişə deyirəm ki, yazıçı əbədiyyətdə xalqın vəkilidir.

**- Çingiz müəllim, söhbətimizin sonunda ənənəvi bir sual: ordumuzun şəxsi heyətinə arzu və istəkləriniz?**

- İstəyim yalnız Qarabağımızın, torpaqlarımızın azadlığını görməkdir. Ordumuzun aprel döyüşlərində yazılan zəfər dastanı bizi Böyük Qələbəyə səsləyir. İnanıram ki, güclü ordumuzun sayəsində Ali Baş Komandanın rəhbərliyi altında Böyük Qələbəyə nail olacağıq.

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## "Artilleriya atəşinin ustaları" müsabiqəsinin püşkatma mərasimi keçirilib

"Beynəlxalq Ordu Oyunları - 2018" çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsinin püşkatma mərasimi keçirilib.

Azərbaycan artilleriyaçılarının da qatıldığı müsabiqədə 11 ölkədən komanda iştirak edir. İştirakçılar döyüş texnikasını qəbul etdikdən sonra silahlardan sınaq atışları icra edəcəklər.

## "Ermənistan və Azərbaycan: əslində mövcud olmayan atəşkəs rejimi"

*Amerikada çıxan "The Daily Caller" nəşrində siyasi icmalçı, "Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" kitabının müəllifi Raul Loueri Kontrerasın "Ermənistan və Azərbaycan: əslində mövcud olmayan atəşkəs rejimi" sərlövhəli məqaləsi dərc edilib.*

AZƏRTAC xəbər verir ki, Kontreras öz məqaləsində erməni qoşunlarının diqqət mərkəzində olan Tərtər rayonunun Qapanlı kəndinin nümunəsində işğal edilmiş Dağlıq Qarabağda erməni və Azərbaycan qoşunlarının təmas xətti boyunca yerləşən Azərbaycan kəndlərinin atəşə tutulması faktını təsvir edir.

Müəllif qeyd edir ki, erməni qoşunları Azərbaycan ərazilərini 1992-ci və 1993-cü illərdə işğal ediblər. Azərbaycanlılar Ermənistanın özündən qovulub, Dağlıq Qarabağda və ona bitişik Azərbaycan rayonlarında etnik təmizləməyə məruz qalıblar. İşğal edilmiş ərazilərdə oyuncaq rejim qurulandan sonra keçən 25 il ərzində heç bir ölkə bu rejimi tanımayıb. Qapanlı kəndi erməni silahlı qüvvələri tərəfindən Ermənistandan və Azərbaycanın işğal edilmiş ərazilərindən qovulmuş qaçqınların və köçkünlərin yerləşdirilməsi üçün Azərbaycan hökuməti tərəfindən abadlaşdırılıb. BMT hesab edir ki, erməni silahlı qüvvələri tərəfindən bir milyona yaxın məcburi köçkün etnik təmizlənməyə məruz qalıb və doğma yurdlarından qovulub. Qapanlı Azərbaycanın bütün ərazisində məcburi köçkünlər üçün salınmış çoxsaylı yaşayış məntəqələrindən biridir. Belə məskənlərin əksəriyyətindən fərqli olaraq Qapanlı qoşunların təmas xəttində yerləşir.

# “N” hərbi hissəsinin yaranmasının ildönümünə həsr olunmuş tədbir keçirildi



*Tədbirdə hərbi hissənin rəhbərliyi, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Kəlbəcər rayon şöbəsinin, ictimai təşkilatın nümayəndələri, ziyalılar və incəsənət xadimləri iştirak edirdilər.*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən polkovnik-leytenant Gülməmməd Rzayev qonaqları salamlayaraq vurğuladı ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordumuzun potensialı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında gündən-günə güclənir, möhkəmlənir. "Bu gün orduda mövcud olan yüksək nizam-intizam və bu istiqamətdə aparılan islahatlar qarşıda qoyulan istənilən tapşırığın öhdəsindən layiqincə gəlməyə imkan verir. Hərbi hissələrin müasir standartlara cavab verməsi, müasir silah və texnikaların alınması, əsgərlərimizin məişət şəraitinin yaxşılaşdırılması ordumuzu ən güclü ordular sırasına daxil edir. Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsidir ki, aprel döyüşlərində və Günnüt zəfərində torpaqlarımızın bir qismi işğaldan azad olundu".

Zabit Gülməmməd Rzayev tədbirdə iştirak etdiklərinə görə Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Kəlbəcər rayon şöbəsinə minnətdarlığını bildirərək qeyd etdi ki, belə tədbirlər ordu ilə xalqın vəhdət təşkil etməsinin bariz nümunəsidir. “Bu, həmçinin əsgərlərimizdə döyüş ruhunun yüksəldilməsində müstəsna əhəmiyyət daşıyır.”

Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Kəlbəcər rayon şöbəsinin sədri Ramiz Əliyev çıxış edərək bildirdi ki, hər dəfə hərbi hissələrə gəldikdə əsgərlərimizin ruh yüksəkliyini, vətənpərvərliyini və hər an döyüşə hazır olduqlarını görəndə qürurlanırıq. “Bu gün biz veteranlar da Ali Baş Komandanın rəhbərliyi altında ərazi bütövlüyümüzü təmin etməyə, Vətən uğrunda canlarından keçən qardaş və bacılarımızın qisasını almağa, bayrağımızı işğal altındakı torpaqlarımızda dalğalandırmağa hazırıq.”

Natiq onu da qeyd etdi ki, qüdrətli ordumuzun əsgərləri tezliklə el-obalarından didərgin düşmüş həmvətənlərimizi doğma yurdlarına qaytaracağına əmindirlər.

Polkovnik-leytenantlar İmran Babayev və Bəxtiyar Əliyev şəxsi heyətin yüksək döyüş qabiliyyətinə malik olduğunu, torpaqlarımızı işğaldan azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözlədiklərini dedilər.

Hərbi xidmətdə fərqlənən hərbi qulluqçulara fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olundu, əsgər valideynlərinə təşəkkür məktubları göndərildi və xidmət dövrü əldə etdikləri nailiyyətlərə görə bir neçə əsgərə nümunəvi məzuniyyət verildi.

Tədbir konsert proqramı ilə sona çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin Hakkari bölgəsində dörd terrorçu məhv edilib



Türkiyənin Hərbi Hava Qüvvələrinin qırıcıları ölkənin Hakkari vilayətinin Yüksekova rayonunda dörd PKK terrorçusunu məhv edib. Zərərsizləşdirilən terrorçular Türkiyə ərazisinə İraqın şimalından keçiblər.

## Türkiyə parlamenti ödənişli əsgərliyə dair qanunu qəbul edib



Türkiyə Böyük Millət Məclisi (TBMM) ödənişli əsgərliklə bağlı qanun layihəsini qəbul edib.

Türkiyə parlamentinin qəbul etdiyi qanuna əsasən, çağırışçılar 15 min Türkiyə lirəsi (hazırki məzənnə ilə təxminən 3000 ABŞ dolları) ödəyib 21 gün xidmət etməklə məcburi hərbi qulluqlarını başa vuracaqlar. Bildirilir ki, 1 yanvar 1994-cü ildən bu tərəfə doğulan çağırışçılar bu xidmətdən istifadə edə biləcəklər.

## Pakistanda törədilən terror aktını İŞİD qruplaşması öz üzərinə götürüb



İyulun 25-də Pakistanın Bəlucistan əyalətinin Kvetta şəhərində törədilən terror aktını İŞİD qruplaşması öz üzərinə götürüb.

Pakistanda keçirilən parlament seçkilərinə mane olmaq üçün törədilən terror aktında son məlumata görə 31-dən çox insan həlak olub, 40-dan artıq yaralı var.

Pakistan mətbuatının yaydığı məlumata görə, partlayışı terrorçu-kamikadze parlamentdəki seçki məntəqələrinin birinin yaxınlığında törədib. Həlak olanlar arasında beş polisin olduğu da bildirilir.

## Suriyada partlayış nəticəsində 38 dinc sakin ölüb



Suriyanın Süvey şəhərində terror aktı baş verib.

Partlayış şəhərin iki hissəsində törədilib. İŞİD-ə məxsus dörd kamikadze partlayışı şəhərin mərkəzi küçələrindən birində və bazarda törədib. Terror aktı nəticəsində 38 nəfərə yaxın dinc sakinin öldüyü bildirilir.

Qeyd edək ki, Suriyanın şimal-şərq bölgəsində yerləşən Süvey şəhəri İŞİD-dən tam təmizlənməyib.

## KİV: İŞİD-in Benqazidəki başçısı zərərsizləşdirilib



İŞİD-in Liviyanın Benqazi şəhərindəki başçısı Mahmud al-Baraasi ölkənin ordu dəstələri ilə toqquşma zamanı öldürülüb. Bu barədə "Al Youm as Sabia" ordudakı mənbəyinə istinadla məlumat yayıb.

Mahmud al-Baraasi Acdbiya şəhərində silahlılarla Liviya rusu arasında toqquşma zamanı zərərsizləşdirilib.

Liviya ordusunun komandanlığı bununla bağlı rəsmi bəyanat verməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan hərbi siyasi rejiminin Azərbaycanın guya cəbhəboyu zonaya qoşun toplaması, aktiv döyüş əməliyyatlarına hazırlaşması barədə saldığı hay-küy öz bəhrəsini verib. Ancaq bumeranq effekti ilə.

Düşmən ordusu tərəfindən işğal olunmuş ərazilərimizdə, əsasən də cəbhəboyu zonaya yaxın məskunlaşan ermənilər evlərini tərk etməyə başlayıb.

Bu barədə Ağdərə rayonu ərazisində polis sahə müvəkkili xidməti edən Lernik Hambartsumyan bildirib.

O deyib ki, faktın gizlədilməsinə və rəsmi açıqlama verilməməsinə baxmayaraq ön xəttə yaxın yerləşən kəndləri əhali tərk etməyə başlayıb. Onun sözlərinə görə, yaradılan bütün süni manelərə baxmayaraq döyüşlərin başlamasından qorxuya düşən əhali fürsətdən istifadə edərək buradan uzaqlaşır.

Rüşvətxorluq və saxtakarlıq isə bu axının daha da surətlə getməsinə əlavə təkan verir.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində xidmətin dözülməz və acınacaqlı olduğu səbəbindən hər gün xidmət yerini özbaşına tərk etmə və fərarilik halları qeydə alınır.

Hərbi hissənin zabiti Robert Harutunyanın Ağdərə hərbi polisinin əməkdaşı Serik Avanesyana verdiyi məlumatda deyilir ki, 3-cü taborun əsgəri Suren Baqdasaryan döyüş mövqeyini silahsız tərk edib. Zabit bildirib ki, S.Baqdasaryan döyüş növbəsində müşahidəçi vəzifəsini yerinə yetirərkən 19:30 radələrində silahı başqa bir müşahidəçinin yanında qoyaraq, "gedim səngəri dolaşım, baxıb gəlirəm", deyərək ərazini tərk edib. İndiyədək əsgərdən xəbər yoxdur.

Hərbi hissəni özbaşına tərk edən əsgərin tapılması və xidmət yerinə qaytarılması istiqamətində tədbirlər görülür.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# 7,62 mm-li MRT-76 avtomat silahı



7,62 mm-li MRT-76 avtomat silahı MKEK (Mecanikal and Chemical Industry corporation) şirkəti tərəfindən istehsal edilib. Silah silahlanmada duran alman istehsallı G-3 tüfəngini əvəz edəcək. NATO 5,56x45 mm-li patron altında 2008-ci ildə istehsal olunan Mehmetçik-1 silahı sınaqlar zamanı türk əsgərləri tərəfindən neqativ rəy aldığına görə, onlar daha effektli dağıdıcı təsir qüvvəsinə malik NATO 7,62x51mm-li patrona üstünlük veriblər. Və 2014-cü ildə 200 ədəd bu kalibrli güllə qoşunların tərkibinə daxil olub və yaxşı nəticələr əldə edib. Verilən məlumata görə, dəqiq, davamlı və təcrübi olaraq bütün istismarda G-3 silahını üstələyir.

2013-cü ildə müasir silahın sınaqları həyata keçirilib və MRT-76 (milli piyada tüfəngi-76) təyinatını alıb. Onun xarici görünüşü Mehmetçik-1-də olduğu kimidir. Üst hissəsində uzunsov pikatin lövhə möhkəmləndirilib ki, burada müxtəlif nişangah cihazları quraşdırmaq olar. Onun standart komplektində avtomatın daşınması üçün tutacaq (dəstək) da quraşdırılıb. Silah teleskopik tənzimlənən çiyin qundağı, daşınmaq üçün tezdəyişilən, əvəz olunan tutacaqla təchiz edilib. Silahın hazırlanmasında alüminium ərintisindən istifadə edilib. Nişangahsız və maqazinsiz çəkisi 4,18 kiloqram, lüləsinin uzunluğu 406 mm, qundaqla ümumi uzunluğu 900 mm, qundağın yığılmış halda isə uzunluğu 1000 mm-dir. MRT-76 atıcı silahının kalibri 7,62x51 mm, nişangah uzaqlığı 600 metr, güllənin sürəti saniyədə 800 metr, maqazini 20 patrondan ibarətdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 468
Nüsxə 3525